# AZƏRBAYCAN RESPUBLİKASININ
# ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 48

**Bakı şəhəri** "29" dekabr 2017 il

**"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"nda Energetika Nazirliyinin icraçısı olduğu məsələlərin icrası haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 13 dekabr tarixli 810 s nömrəli sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 30 noyabr tarixli 773 s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"nda (bundan sonra – iş planı) Energetika Nazirliyinin icraçısı olduğu məsələlərlə bağlı müvafiq materialların və layihələrin hazırlanıb təqdim edilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. İş planının 15-ci, 18-ci, 24-cü və 29-cu bəndlərində nəzərdə tutulmuş məsələlərlə bağlı müvafiq materialların və layihələrin hazırlanması və razılaşdırılmış formada təqdim edilməsi iş planında əks olunan iclasda baxılma müddətinə 2 ay qalanadək aşağıdakı şöbələrə və qurumlara tapşırılsın:

1.1. İş planının 15-ci bəndi – "Azərbaycan Respublikasının "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişi"ndən irəli gələn öhdəliklər və bu öhdəliklərin yerinə yetirilməsi üzrə aidiyyəti dövlət qurumlarının qarşısında duran vəzifələrin müzakirəsi" üzrə Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri, Elektroenergetika və Enerji siyasəti və yanacaq-enerji resursları şöbələrinə;

1.2. İş planının 18-ci bəndi – "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin təkmilləşdirilməsi üzrə təkliflərin müzakirəsi" üzrə Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri və Elektroenergetika, Hüquqi münasibətlər şöbələrinə, həmçinin Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinə;

1.3. İş planının 24-cü bəndi – "Neft-qaz yanacağı ilə fasiləsiz və keyfiyyətli təminat məqsədi ilə işlənilmiş tədbirlər proqramının müzakirəsi" üzrə Enerji siyasəti və yanacaq-enerji resursları və İqtisadiyyat, elm və innovasiya şöbələrinə;

1.4. İş planının 29-cu bəndi – "Dövlət energetika ekspertizasının keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarının layihəsinin müzakirəsi" üzrə Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri, Elektroenergetika, Enerji siyasəti və yanacaq-enerji resursları və Hüquqi münasibətlər şöbələrinə.

2. Nazir müavini Samir Vəliyevə tapşırılsın ki, bu əmrin 1-ci hissəsində nəzərdə tutulmuş məsələlərlə bağlı müvafiq materialların və layihələrin hazırlanması işinə rəhbərlik etsin və hər ayda bir dəfə görülmüş işlər barədə məlumat versin.

3. Ümumi şöbə bu əmrin surətinin nazirliyin aparatının aidiyyəti struktur bölmələrinə və tabeliyində olan qurumlara çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**